Misir MƏRDANOV
Ədalət TAHİRZADƏ

# 1920-Cİ İLƏDƏK ALİ MƏKTƏBLƏRDƏ OXUMUŞ AZƏRBAYCANLILAR

(Ensiklopedik soraq kitabı)

II CİLD

Bu kitab
müsəlman Şərqində ilk demokratik dövlət olan
AZƏRBAYCAN CÜMHURİYYƏTİNİN
(1918-1920)
100 illik yubileyinə
armağanıdır

Misir MƏRDANOV
Ədalət TAHİRZADƏ

# 1920-Cİ İLƏDƏK ALİ MƏKTƏBLƏRDƏ OXUMUŞ AZƏRBAYCANLILAR

(Ensiklopedik soraq kitabı)

Azf. 309631

II CİLD

B-Ə

Azərbaycan Milli Kitabxanası

BAKI – 2019



**CAVANŞİR Behbud xan Azad xan oğlu**
*[12 (25).07.1878, Azad Qaraqoyunlu k. / Tərtər q.- 17.07.1921, İstanbul]*



Behbud xan Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi Azad xanın oğludur.



1903

Orta təhsilini Tiflis gimnaziyasında alıb (1890-23.06.1898).

1899-cu ilin oktyabrında Almaniyaya gedib və orada Frayberq Dağ-Mədən Akademiyasına (Königliche Bergakademie zu Freiberg) daxil olub. Bu Akademiyanın ilk azərbaycanlı tələbəsi olaraq 4380 saylı tələbə bileti alıb. Təhsilini 22 dekabr 1903-cü ildə "dağ-mədən mühəndisi" diplomu ilə başa vurub.

Almaniyadan İngiltərəyə gedərək təkmilləşdirmə kurslarında oxuyub.

Ana dilindən başqa alman, ingilis, fransız, rus və gürcü dillərini bilib.

1906-cı ildə Azərbaycana qayıtdıqdan sonra Şibayevin neft mədənlərində mühəndis kimi işləməyə başlayıb.

Rusca "Kaspi" və "Baku" qəzetləri 1906-cı ilin sentyabrında belə bir xəbər dərc ediblər ki, Tağıyev teatrında dağ mühəndisi Behbud ağa Cavanşir 3-cü Aleksandra adına gimnaziyanın yoxsul müsəlman tələbələri və edadi (real) məktəblərinin şagirdləri üçün 29 sentyabr saat 2-də "Şərq konserti" təşkil edəcək.

Yenə "Kaspi" qəzeti 1907-ci ilin yanvarında xəbər verib ki, Qurban bayramı günü Tağıyevin Aleksandra qız məktəbində xeyriyyə tədbiri keçirilib. Tağıyev 5 min manat, ziyalılar isə 3-10 manat arasında ianə veriblər. Behbud xan Cavanşir 5 manat keçirib.

Bunlar onun vətənə dönüncə mədəni tədbirlərdə fəallıq göstərdiyinin sübutudur.

1917-ci ilin fevralında çar hakimiyyəti devrildikdən sonra Zaqafqaziyada, o sıradan Azərbaycanda ictimai-siyasi durum xeyli